https://doi.org/10.59849/3006-1342.2024.1.78
UOT 94

*Ş.S.Babayeva*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: babayeva_01@mail.ru*

# AZƏRBAYCAN SSR-DƏ 1945-1960-CI İLLƏRDƏ MƏKTƏBƏQƏDƏR UŞAQ MÜƏSSİSƏLƏRİ SİSTEMİNİN İNKİŞAFI

*XX əsrin 40-60-ci illəri Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafında mühüm mərhələ təşkil edir. 1945-1960-cı illərdə Azərbaycan SSR-də məktəbəqədər uşaq müəssisələrinin inkişafı sahəsində müəyyən uğurların əldə edildyini vurğulamaq lazımdır. Azərbaycan qadınlarının ictimai istehsala geniş cəlb edilməsi bu tip müəssisələrin sayının artırılmasını zəruri edirdi. Ümumittifaq və respublika büdcəsindən mədəni-maarif və təhsil sahələrinə ayrılan vəsaitlərin ilbəil artırılması məktəbəqədər müəssisələri şəbəkəsinin genişlənməsinə və onların maddi-texniki bazasının yaxşılaşdırılmasına şərait yaradırdı. Nəticədə uşaq bağçaları və yaslilərin sayı 1945-ci illə müqayisədə 1960-ci ildə dəfələrlə artmış, onların coğrafiyası bütün inzibati-ərazi vahidlərin əhatə etmişdi. Azərbaycanın kənd yaşayış yerlərində dövlət vəsaiti və kolxozların hesabına uşaq müəssisələrinin tikilməsi də dövrün səciyyəvi xüsusiyyətlərindən biri sayıla bilər. Məktəbəqədər müəssisələrin inkişafına ümumittifaq və respublika səviyyəsində bu sahənin inkişafı ilə bağlı qəbul edilmiş qərar və planlar da öz müsbət təsirini göstərirdi.*

*Açar sözlər:* məktəbəqədər müəssisələr, mədəni-maarif sahəsi, qadınlar, uşaqlar

XX əsrin 40-60-ci illəri Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafında mühüm mərhələ təşkil edir. Düzdür, təhsil sisteminin mühüm sahəsini təşkil edən məktəbəqədər müəssisələr Azərbaycanda hələ həmin əsrin 1920-30-cu illərində təşəkkül tapmış, həmin illərdə məktəbəqədər təhsil sistemi sovet dövlətinin təhsil sisteminin əsas halqalarından birinə çevrilmişdir. Həmin illərdə respublikada məktəbəqədər müəssisələr şəbəkəsinin inkişafı, sovet rejiminin ideoloji ehkamların uyğun olaraq onlarda təlim-tərbiyə işinin təşkili və ixtisaslı tərbiyəçi kadrların hazırlanmasında müəyyən nailiyyətlər əldə edilmişdi. Kommunist partiyasının və sovet hökumətinin planlarında sonrakı illərdə qadınların azad edilməsində, istehsala və ictimai fəaliyyətə cəlb edilməsində, eləcə də uşaqların kommunist partiyasının ideoloji-siyasi ehkamları ruhunda böyüməsində məktəbəqədər müəssisələrin mühümlüyü nəzərə alınaraq onların geniş şəbəkəsinin yaradılması nəzərdə tutulurdu. Lakin faşist Almaniyasının SSRİ-yə hücumu bu planların həyata keçirilməsini müəyyən qədər ləngitdi.

1941-1945-ci illər müharibəsinin yaratdığı ağır sosial-iqtisadi şərait Azərbaycanın bütün sahələri kimi, təhsil sisteminə də ciddi təsir göstərdi. Yalnız İkinci Dünya müharibəsindən sonra sovet hökuməti həyatın bütün sahələrində olduğu kimi təhsil, o cümlədən məktəbəqədər təhsil, o cümlədən məktəbəqədər təhsil sistemində də köklü dəyişikliklər həyata keçirməyə başladı.

1941-1945 Sovet-alman müharibəsi Azərbaycan SSR demoqrafik vəziyyətinə ciddi təsir göstərmiş, respublika əhalisinin sayı 17.4% azalmışdı. Qeyd edək ki, respublika əhalisinin müharibədən əvvəlki səviyyəsini müharibə qurtardıqdan yalnız 10 il sonra, 1955-ci ildə bərpa etmək mümkün olmuşdur. 1950-ci illə müqayisədə 1960-ci ildə Azərbaycan əhalisi 33.5% çoxalmışdı. Həmin illər ərzində əhalinin orta illik artımı 3.3 % olmuşdur [12, s. 20, 26].

Hər bir cəmiyyətdə təhsilin, o cümlədən məktəbəqədər təhsilin inkişafı həmin cəmiyyətdə qadınların azad olunması, ictimai həyata, istehsala cəlb olunması dərəcəsi, savad və təhsil səviyyəsi ilə qarşılıqlı surətdə əlaqədardır. Qadınların ictimai istehsala cəlb edilməsi, onların məşğulluq problemlərinin həlli ictimai tərəqqinin və gender bərabərliyini əsasını təşkil edir. Məşğul qadınların sayı artdıqca onların uşaqlarının məktəbəqədər tərbiyə və təhsil müəssisələrinə cəlb olunması zərurəti yaranır və deməli, bu müəssisələrin də sayının artırılmasına, imkanlarının genişləndirilməsinə ehtiyac artır. Digər tərəfdən, uşaqların qayğısına qala biləcək sosial-maarif müəssisələrinin mövcudluğu kiçik yaşlı uşaqları olan anaların ictimai istehsala daha geniş cəlb olunmasına münbit şərait yaradır. Azad bazar iqtisadiyyatı ölkələrində məşğul qadınların işlədiyi vaxtlarda onların uşaqları xüsusi (özəl) uşaq müəssisələrində tərbiyə alırlar. Ancaq SSRİ-də bu yükü bilavasitə dövlət öz üzərinə götürmüşdü və bu müəssisələrin tikintisi, sayı, yerləşdirilməsi məsələləri respublikaların plan və öhdəliklərində nəzərdə tutulurdu. Bu baxımdan XX əsrin 40-50-ci illərində Azərbaycan SSR-də məktəbəqədər müəssisələrin fəaliyyətini və inkişaf mərhələlərini dəyərləndirərəkən həmin dövrdə respublikada qadınların vəziyyətinin təhlili mühüm əhəmiyyət kəsb edir.

Bütövlükdə 1940-cı illərin ikinci yarısı - 50-ci illər Azərbaycan qadınlarının kütləvi şəkildə ümumi orta təhsilə və ali təhsilə cəlb olunması, onların savadlılıq və təhsil səviyyəsinin yüksəlməsinə, sosial-siyasi fəallığının artmasına gətirib çıxardı. Qadınların ictimai istehsal geniş cəlb olunması, sosial- mədəni sferalarda, dövlət strukturlarında təmsil olunması isə öz növbəsində qadın məşğulluğunun artmasına gətirib çıxarırdı. Hələ 1920-1940-cı illərdə SSRİ-də qadınların siyasi və hüquqi bərabərliyinin aradan qaldırılması istiqamətində çox ciddi işlər görülmüş, qadınların cəmiyyətin bərabərhüquqlu üzvlərinə çevrilməsi üçün müvafiq qanunvericilik bazası yaradılmışdı. Eyni zamanda məhz həmin illərdə qadınların ictimai istehsala geniş cəlb edilməsi sahəsində ilk uğurlu addımlar atılmışdı. Yuxarıda qeyd edildiyi kimi, 1941-1945-ci illər ərzində müharibə şəraitinə uyğun olaraq Azərbaycan qadınlarının sənaye və kənd təsərrüfatı istehsalı, mədən-maarif sferasına geniş cəlb olunması ilə əlamətdar olmuşdu.

Müharibədən sonra dövlət qadın siyasətinin əsas vəzifələrindən biri qadınların tam azadlığına və faktik bərabərliyinə nail olmaq, onları ictimai istehsala, əmək fəaliyyətinə geniş cəlb etmək idi. Bunun üçün isə birinci şərt qadınlar arasında hələ də mövcud olan savadsızlığın tam ləğvinə nail olmaq, onları ümumi təhsil sisteminə cəlb etmək idi.

Etiraf etmək lazımdır ki, SSRİ-nin başqa respublikaları ilə müqayisədə Azərbaycanda və digər müsəlman respublikalarında bu vəzifələrin öhdəsindən gəlmək olduqca çətin idi. Bunun üçün ilk növbədə cəmiyyətdə qadına münasibətdə əsrlər boyu mövcud olmuş patriarxal mental təsəvvürləri aradan qaldırmaq lazım idi. Sovet rejiminin istər 1920-30-cu illərdə, istərsə də 1940-60-ci illərdə qadınların azad olunması istiqamətində atdığı addımlar bir çox hallarda inzibati-icbari xarakter daşısa da bu addımlar Azərbaycanda gender bərabərsizliyinin azaldılması baxımdan mühüm əhəmiyyətə malik idi.

Müharibə dövründə arxa cəbhədə böyük fədakarlıqlar göstərən Azərbaycan qadınları müharibədən sonra da respublikanın sosial-iqtisadi və mədəni inkişafına böyük töhfələr vermişlər. Bunu 40-50-ci illərə dair statistik göstəricilər də təsdiq edir. 1945-ci ildə Azərbaycan iqtisadiyyatında çalışanların 45%-ni qadınlar təşkil edirdisə, 1960-cı ildə bu rəqəm 38% təşkil edirdi [16, s. 135]. 1950-ci ildə Azərbaycan SSR-də fəhlə və qulluqçu qadınların sayı 227 min (bütün fəhlə və qulluqçuların 40%), 1955-ci ildə 228 min (bütün fəhlə və qulluqçuların 38%), 1960-cı ildə isə 284 min (bütün fəhlə və qulluqçuların 38%) təşkil etmişdir [24, s. 185].

İlk baxışdan məşğul əhalinin sayında qadınların xüsusi çəkisi azalsa da bu azalma tamamilə təbii olub, müharibədən qayıdan kişilərin yenidən istehsala qayıtmaları ilə əlaqədar idi. Bununla yanaşı, qadınların ümumi sayında məşğul qadınların sayı da ilbəil artırdı.

Qadınların istehsala geniş cəlb olunması bir tərəfdən ictimai tərəqqiyə, ölkə və respublika iqtisadiyyatının və mədəniyyətinin inkişafına təkan verirdisə, digər tərəfdən onların mədəni səviyyəsinin artmasına, maddi-və mənəvi tələbatlarının daha dolğun ödənilməsinə, rifah halının yüksəlməsinə şərait yaradırdı. 1945-1955-ci illərdə Azərbaycanda sənaye məhsulunun istehsalı hər beşillik üzrə təqribən 44-45% artmışdı, 1940-cı illə müqayisədə bu göstərici 1952-ci ildə 164%, 1961-ci ildə isə 2.8 dəfə artmışdı. 1940-ci illə müqayisədə fəhlə və qulluqçuların sayı 1952-ci ildə  135%, 1960-cı ildə 164%, artmışdı [14, s. 11]. Belə surətli artımda qadınların da böyük rolu var idi.

Qadınların ictimai istehsala cəlb olunması ilk növbədə onların savadlılıq səviyyəsinin artması, təhsilə geniş cəlb edilməsi ilə əlaqədar idi.

Araşdırılan dövrdə Azərbaycan qadınları arasında savadsızlığın ləğv edilməsi sahəsində köklü dəyişikliklər baş verdi. 1959-cu ilin əhali siyahıya alınmalarına görə Azərbaycanda 9-49 yaşlı qadınlar arasında savadlılıq 96% (kişilərdə 98.8%) təşkil edirdi (1939-cu ildə müvafiq olaraq 76.1% və 88.8.%) [24, s. 15]. Bu göstəriciyə görə kənd və şəhər arasında fərq demək olar ki, aradan qalxmışdı. Bu həmin dövrdə dünyanın əksər ölkələri ilə müqayisədə çox yüksək göstərici idi.

Ali və orta ixtisas təhsili almış, orta məktəb bitirmiş qadınların sayında da ciddi kəmiyyət dəyişiklikləri baş vermişdi. 1959-cu ilin göstəricilərinə görə respublika əhalisi arasında bitmiş ali təhsilli 77.2 min nəfərdən 31.5 mini, bitməmiş ali təhsilli 33.8 min nəfərdən 13.7 min nəfəri, orta ixtisas təhsilli (texnikumları və ona bərabər təhsil müəssisəsini bitirmiş 115.5 min nəfərdən 55.8. min nəfəri, tam orta məktəbi bitirmiş 214.8 min nəfərdən 95.6 min nəfəri qadın idi [24, s. 13]. Tələbələr arasında qadınların sayının artması onların ali və orta ixtisas təhsilli mütəxəssis kimi yetişmək arzularının ifadəsi idi. Belə ki. 1960/61-ci tədris ilində Azərbaycanda ali məktəblərdə 12.3 min (bütün tələbələrin 33.7 - 34%), texnikum və orta ixtisas təhsili müəssisələrində isə 8.5 min (bütün tələbələrin 31.5-32%) qız oxuyurdu (Faiz rəqəmləri arasında fərqlilik müxtəlif statistik göstəricilərdə müxtəlif rəqəmlərin göstərilməsi ilə bağlıdır. [24, s. 219; 17, s. 255; 13, s. 184; 14, s. 184].

Qadınlar ali təhsilli mütəxəssislərin 39%-i, o cümlədən həkimlərin 66%-i, mühəndislərin 23%-i, kənd təsərrüfatı mütəxəssislərinin 15%-i, pedaqoq və mədəni-maarif müəssisələri işçilərinin 42%-i təşkil edirdilər. Orta təhsilli mütəxəssislərin isə 50% qadınlar idi [24, s. 201].

İqtisadiyyatda məşğul ali və orta təhsilli mütəxəssislər arasında da qadınların sayı sürətlə artırdı. Lakin buna baxmayaraq Azərbaycan SSR-də işləyən qadınların ümumi təhsil səviyyəsi (1959-cu ildə 431 nəfər) ümumittifaq göstəricisindən aşağı idi [25, s. 54].

1950-cı illər qadınların ictimai istehsalda, kənd təsərrüfatı, ticarət, rabitə, ictimai iaşə, mədəniyyət, təhsil, elm, səhiyyə və s. sahələrdə geniş iştirakı ilə səciyyələnir. Bu illərdə Azərbaycan SSR-də qadınlar ictimai istehsalın demək olar ki. əksər sahələrində (dağ-mədən sənayesi istisna olmaqla) təmsil olunmuşdular. 1960-cı ildə qadınlar sənayedə işləyən fəhlə və qulluqçuların 38%-i, tikintidə 13%-i, sovxozlarda işləyənlərin 33%-i, nəqliyyat və rabitədə işləyənlərin 22%-i, ticarət, ictimai iaşə, tədarükdə işləyənlərin 42%-i, səhiyyədə işləyənlərin 76%-i, maarif sahəsində çalışanların 52%-i, elm və elmi xidmət sahəsində çalışanların 40%-i, dövlət və təsərrüfat idarəçiliyində, koopertaivlərin və ictimai təşkilatların idarələrində, kredit və sığorta təşkilatlarında işləyənlərin 37-i təşkil edirdilər [24, s. 186]. Həmin illərdə qadın məşğulluğunun artması həm də onların əməyinin xarakterinin dəyişməsi, iş və məişət şəraitinin yaxşılaşdırılması, ana və uşaqların sağlamlığının qorunması və onlara göstərilən sosial və məişət xidmətinin keyfiyyətinin artması ilə müşayiət olunurdu.

Qadın əməyindən istifadənin genişlənməsi və qadın əmək ehtiyatlarından səmərəli istifadə edilməsi zəruriliyi ilk növbədə istehsalda çalışdıqları zaman onların uşaqlarının qayğısına qala biləcək uşaq müəssisələrinin sayı və imkanları ilə ölçülürdü. Çünki məşğul

qadın həm də ənənəvi olaraq ev-məişət problemlərinin ağırlığını öz üzərinə götürməklə yanaşı öz kiçik yaşlı uşaqlarının da qayğısına qalmalı idi.

Müharibədən sonrakı 15 il ərzində respublikanın maddi və mənəvi həyatında baş verən müsbət dəyişikliklər əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin yaxşılaşmasına gətirib çıxardı. Belə ki, 1940–cı ildə əhalinin hər 1000 nəfərinə 29.4 doğum, 14.7 ölüm hadisəsi düşürdüsə və təbii artım 14.7 idisə, 1950-ci ildə bu rəqəmlər 31.2, 9.6, 21.6, 1955-ci ildə 37.8, 7.6, 30.2, 1960-cı ildə isə müvafiq olaraq 42.6, 6.7 və 35.9 təşkil etmişdi. Əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi, ölüm səviyyəsi və təbii artım səviyyəsi 1945-1950-ci illərdə müvafiq olaraq 28.5; 9.4; və 19.1; 1950-1955-ci illərdə 34.3; 9.1; və 25.2; 1956-1960-cı illərdə isə 40.1; 7.0; və 33.6 nəfər arasında tərəddüd etmişdir. Beləliklə, on il (1950-1960) ərzində respublikada doğulanların sayında təqribən 1.5 dəfə artım, ölənlərin sayında isə 1.5 dəfə azalma baş vermiş (1940-cı illə müqayisədə isə hər iki halda 2.2 dəfə artım və azalma), nəticədə təbii artım 60%-dən artıq olmuşdu [24, s. 28; 19, s. 17; 14, s. 10]. Ümumiyyətlə, 1950-ci ildən ötən sonrakı illər ərzində Azərbaycanda əhalinin ən yüksək doğum və təbii artım səviyyəsi 1960-cı ilə təsadüf edir. 50-60-cı illərin demoqrafik inkişaf göstəricilərinə görə Azərbaycan SSR sovet respublikaları arasında ən qabaqcıl yerlərdə birini tuturdu, hətta doğum və təbii artım səviyyəsinə görə birinci yerə çıxmışdı [8, s. 20, 25-26]. Bununla yanaşı Azərbaycan Respublikasında ölüm səviyyəsi yüksək olaraq qalırdı. Hər 1000 nəfər diri doğulan 1 yaşa qədər uşağa düşən ölənlərin sayına görə 1950-ci ildə bu rəqəm 67.6, 1955-ci ildə 58.7, 1960-cı ildə 48.9 nəfər təşkil etmişdi. Göründüyü kimi, uşaq ölümü səviyyəsi ilbəil azalsa da, bu göstərici kifayət qədər yüksək olaraq qalırdı. Bunun əsas səbəbi isə həmin illərdə ana və uşaqlara göstərilən tibbi xidmətinin keyfiyyətinin aşağı olması ilə bağlı idi.

Həmin illərdə qeydə alınmış nikahların sayı da hər 1000 nəfərə 8.2-dən 12.0-a qədər artmışdı [17, s. 17]. 1950-ci illərdə demoqrafik inkişafın ən müsbət göstəricilərindən biri nikahların sayının artması və nikahların sayına nisbətdə boşanmaların sayının çox aşağı olması idi. 1960-cı ildə 12 min nikah bağlanmış və cəmi 0.7 min boşanma qeydə alınmışdı. 1950-ci illə müqayisədə nikahların sayı 1.9 dəfə (şəhər yerlərində 1.4 dəfə, kənd yerlərində 3.1 dəfə) artsa da, boşanmaların ümumi sayı da 3.3 dəfə artmış, o cümlədən şəhər yerlərində 3.4 dəfə artmış, kənd yerlərində isə 4.6% azalmışdır [3, s. 324-329; 8, s. 38-39]. Çox təəssüf ki, sonrakı illərdə bu göstəricilər pisləşməyə doğru getmiş, məsələn, 1970-ci ildə bu rəqəmlər müvafiq olaraq 6.8 min və 1.3 min, 1980-ci ildə isə 9.8 min və 1.2 min təşkil etmişdir [18, s. 31]. Çox təəssüf ki, müasir Azərbaycanda da bu sahədə rəqəmlər heç də ürəkaçan deyil. Bunu son illərin statistikası da sübut edir. Əgər 2010-cu ildə ölkədə 79172 nikah bağlanmışdısa (9061 boşanma qeydə alınmışdı), 2019-cu ildə xeyli az - cəmi 63869 nikah bağlanmış, boşanmaların sayı isə əksinə iki dəfə artaraq 17148 təşkil etmişdir. 2019-cu ildə Azərbaycanda əhalinin hər 1000 nəfərinə 6,4 nikah və 1,7 boşanma düşürdü [2, s. 68]. Bu statistika 1950-ci illərlə müqayisədə müasir dövrdə ailə dəyərlərinin müəyyən qədər zəifləməsini bir daha təsdiq edir.

Araşdırılan dövrdə qadınların vəziyyətini xarakterizə edən və məktəbəqədər müəssisələrin və oradakı uşaqların sayına təsir göstərən amillərdən biri də ailədəki uşaqların sayı ilə bağlı idi. Ənənəvi olaraq Azərbaycan ailəsində çoxuşaqlılıq həmişə mövcud idi. Bu baxımdan 1945-1960-cı illər istisna deyildi. Bu illərdə çoxuşaqlı anaların sayı kəskin artmışdı ki, bu da müəyyən qədər onların nisbi rifah halının yaxşılaşması ilə izah oluna bilər. Belə ki, 1945-ci ildə Azərbaycanda 25,8 min çoxuşaqlı ana var idi. Onlardan 6,1 mini dörd uşaqlı, 5.2 mini beş uşaqlı, 3.5 mini altı uşaqlı, 11.0 mini isə yeddi və daha çox uşaqlı analar idilər. 1958-ci ildə çoxuşaqlı anaların sayı 144.9 minə (dörduşaqlılar 62.1 min, beşuşaqlılar 38.4 min, altıuşaqlılar 22.9, yeddi və daha çox uşaqlılar 21.5 min), 1961-ci ildə isə 197.6 minə (dörduşaqlılar 83.0 min, beşuşaqlılar 52.2 min, altıuşaqlılar 31.5 min, yeddi və daha çox

uşaqlılar 31.15 min) çatmışdı [14, s. 200]. Göründüyü kimi, Azərbaycanda 1945-1960-cı illərdə çoxuşaqlı ailələrin sayında təqribən 8 dəfəyə yaxın, üç il - 1958-1961-ci illər ərzində isə 2 dəfədən çox artım baş vermişdi. Bununla yanaşı respublikada aylıq müavinət alan tək anaların sayı da az deyildi. 1958-ci ildə belə anaların sayı 18904 nəfər təşkil edirdi ki, onların 15356-ı təkuşaqlı, 2636-ı ikiuşaqlı, 912-i isə üçuşaqlı analar idilər [14, s. 201]. Ailənin tərkibi və həcmi qadınların məşğulluğuna birbaşa təsir göstərir. Uşaqların sayı artdıqca ananın ictimai istehsalda iştirak etmək imkanı məhdudlaşdığından onların məktəbəqədər müəssisələrə ehtiyacı da artırdı.

Müharibədən sonrakı dövrdə iqtisadiyyatın bərpa edilməsi vəzifələri ictimai istehsala yeni əmək ehtiyatlarının cəlb edilməsi zərurəti yaradırdı. Həmin dövrdə qadınların kütləvi şəkildə xalq təsərrüfatının müxtəlif sahələrində əmək fəaliyyətinə geniş cəlb olunmaları ilə əlamətdar oldu. Belə şəraitdə uşaq bağçaları və yaslilərə, digər ictimai tərbiyə müəssisələrinə tələbat getdikcə artırdı. Müharibədən sonrakı dövrdə məktəbəqədər uşaq müəssisələrinin inkişafı xalq təhsili və sosial təminat orqanlarının əsas fəaliyyət istiqamətlərindən birinə çevrilirdi.

1946-1950-ci illərdə SSRİ-nin xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair IV və 1951-1956-cı illərdə SSRİ xalq təsərrüfatının inkişafına dair V beşillik planlarda qadınların ictimai istehsala geniş cəlb edilməsi və bu məqsədlə məktəbəqədər uşaq müəssisələri şəbəkəsinin genişləndirilməsi, məktəb yaşlı uşaqların ictimai tərbiyəsi məsələlərinə geniş yer verilmişdi. 1949-cu ilin mayında SSRİ Nazirlər Sovetinin İ.V.Stalin tərəfindən imzalanmış "Uşaq məktəbəqədər müəssisələrinin və doğum evlərinin genişləndirilməsi və onların işinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında" qərarı qəbul edildi. Qərarda nazirlik və idarələr, müttəfiq respublikaların nazirlər sovetləri və yerli sovetlər tərəfindən uşaq müəssisələri şəbəkəsinin genişləndirilməsi barədə planların yerinə yetirilmədiyi, uşaq bağçalarında uşaqların sayının nəzərdə tutulduğundan az olduğu, bir sıra iri şəhərlərdə istehsalatda işləyən ana-qadınların uşaqlarının yasli və uşaq bağçalarına qəbul edilməsindən imtina edildiyi, uşaq müəssisələrinin saxlanılması üçün ayrılmış dövlət vəsaitlərindən tam istifadə edilmədiyi, uşaq müəssisələrinin binalarının tikintisi planının qeyri-kafi yerinə yetirildiyi, uşaq müəssisələrinin maddi-texniki və ərzaq təchizatında ciddi problemlərin olduğu öz əksini tapmışdı. Uşaq müəssisələrinin və doğum evlərinin şəbəkəsinin genişləndirilməsi məqsədilə qərarda ittifaq nazirlikləri və müttəfiq respublikaların nazirlər sovetləri, yerli sovetlər və icra hakimiyyətləri orqanları qarşısında vəzifələr qoyulmuş və bu vəzifələrin icrası üçün konkret müddətlər müəyyənləşdirilmişdi. Qərarda uşaq müəssisələrində uşaqların qidalanması və onların avadanlıqlarla təmin olunması normaları müəyyənləşdirilirdi.

Həmin qərarda uşaq müəssisələri üçün xüsusi olaraq tikilmiş, həmçinin onlar üçün uyğunlaşdırılmış, lakin təyinatı üzrə istifadə olunmayan binaların azad edilməsi tələb edilmişdi.

Müharibədən sonrakı on il (1945-1950-ci illər) ərzində qadınların ictimai istehsalda iştirakını dəstəkləmək üçün atılan addımlar sırasında məktəbəqədər uşaq müəssisələrinin tikintisi mühüm yerlərdən birini tuturdu. Artıq 1950-ci ildə Azərbaycanda 21.953 uşağın tərbiyə aldığı (o cümlədən 2.086 kənd yerlərində) 539 uşaq bağçası (onların 108 kənd yerlərində) fəaliyyət göstərirdi. Onların tərbiyəsi ilə 1.616 tərbiyəçi məşğul olurdu. Həmin ildə 12.084 yerlik 311 daimi (stasionar) yasli fəaliyyət göstərirdi [12, s. 499, 501]. Beşinci beşillik ərzində dövlət vəsaiti hesabına 2.235 yerlik uşaq bağçası, 1.1185 yerlik yasli, kolxozların vəsaiti hesabına isə 1.335 yerlik bağça və 3.148 yerlik yasli istifadəyə verilmişdi [11, s. 250; 23, s. 43]. 1955-ci ildə respublikada mövcud 549 uşaq bağçasında 26.150 uşaq tərbiyə alırdı. Göründüyü kimi 1955-ci illə müqayisədə məktəbəqədər müəssisələrin və orada tərbiyə alan uşaqların sayında çox kiçik artım baş vermişdi və hətta 1940-cı il səviyyəsinə çatmaq mümkün olmamışdı. Azərbaycan KP-nın 21-ci qurultayında respublikada, xüsusən

rayonlarda yasli və bağçaların tikintisinin sürətləndirilməsi zəruriliyinə diqqət yetirilmişdi. 1958-1960-cı illərdə dövlət hesabına 1200 yerlik bağça və 233 yerlik yasli, kolxozların vəsaiti hesabına isə 2.650 yerlik bağça və 1905 yerlik yasli istifadəyə verilmişdi [11, s. 250; 23, s. 54].

Məktəbəqədər müəssisələr sisteminin inkişafını təmin edən əsas amillərdən biri bu sahəyə ayrılan dövlət vəsaitlərinin artırılması idi. 50-ci illərdə SSRİ-nin iqtisadi göstəricilərinin yaxşılaşması bu sahəyə kapital qoyuluşunun həcmini də ilbəil artırmağa imkan verirdi. Bu isə öz növbəsində həm bu tip müəssisələrin tikintisinin genişləndirilməsinə, həm də onların maddi-texniki bazasının möhkəmləndirilməsinə şərait yaradırdı. Respublika üzrə əsaslı tikintiyə ayrılan vəsaitlərin artması özünü həm də müharibədən sonrakı beşilliklər üzrə məktəbəqədər müəssisələrin tikintisində və istifadəyə verilməsində göstərirdi. Belə ki, dövlət xətti ilə IV beşillik ərzində 100 yerlik uşaq bağçası və 150 yerlik yasli, V beşillikdə 2235 yerlik uşaq bağçası və 1185 yasli, 1956-1960-cı illər ərzində isə 3.119 yerlik uşaq bağçası və 1247 yerlik yasli tikilmişdi. Eyni zamanda kolxozların hesabına məktəbəqədər müəssisələr tikilirdi. V beşillikdə Azərbaycanda kolxozların hesabına 1335 yerlik uşaq bağçası və 3148 yerlik yasli, 1956-1960-cı illərdə isə 5133 yerlik uşaq bağçası və 4893 yasli tikilmişdi [24, s. 157; 17, s. 2-3, 204; 13, s. 175-176].

Məktəbəqədər uşaq müəssisələrinin sürətlə tikilərək istifadəyə verilməsi nəticəsində onlarda tərbiyə alan uşaqların sayında da ciddi artım dəyişiklikləri baş vermişdi. Əgər 1950-ci ildə daimi körpələr evlərində (yaslilərdə) uşaqların sayı 9.0 min (onlardan 1.3 mini kənd yerlərində), 1960-cı ildə isə 12.8 min (onlardan1.7 mini kənd yerlərində) təşkil edirdi. Daimi uşaq bağçalarında isə uşaqların sayı 1950-ci ildə 22.0 mindən (onlardan 2.1 mini kənd yerlərində), 1960-cı ildə isə 40.0 minə (onlardan 3.1 mini kənd yerlərində) çatmışdı [17, s. 249]. Göründüyü kimi, 10 il ərzində yaslilərdə uşaqların sayı 1.4 dəfəyə yaxın, uşaq bağçalarında isə 2 dəfəyə yaxın artsa da, bu artım əsasən şəhərlərin hesabına baş verirdi. Bunun əsas səbəbi, ilk növbədə şəhər əhalisinin sürətlə artması, qadınların sənaye sahələrinə daha sürətlə cəlb olunması və buna görə də uşaq müəssisələrinin də əsasən şəhərlərdə tikilməsi ilə əlaqədar idi. Kəndlərdə isə ənənəvi olaraq uşaqlar daha çox evdə tərbiyə alırdılar.

Naxçıvan Muxtar Respublikasında da məktəbəqədər tərbiyə və təhsil müəssisələrinin şəbəkəsi müharibədən sonrakı 15 ildə xeyli genişlənmişdi. 1950-ci ildə muxtar respublikada 20 uşaq bağçasında 350 uşağın tərbiyəsi ilə 40 nəfər tərbiyəçi məşğul olurdu. İki ildən sonra bölgədə məktəbəqədər müəssisələrin sayı 22-yə, oradakı uşaqların sayı 596-ya, tərbiyəçilərin sayı isə 57 nəfərə çatdırıldı. 1960-cı illərin əvvəllərində muxtar respublikada artıq 27 uşaq bağçası fəaliyyət göstərirdi ki, onlarda işləyən 87 tərbiyəçi 993 uşağın tərbiyəsi ilə məşğul olurdu [10, s. 136].

Respublikada dövlət xətti ilə yanaşı idarə və müəssisələrin, kolxoz və sovxozların hesabına da uşaq müəssisələri tikilərək istifadəyə verilirdi.

"Müəssisə və təşkilatlarda çalışan analara kömək göstərilməsi tədbirləri haqqında" SSRİ Nazirlər Sovetinin 13 oktyabr 1956-cı il tarixli, 1414 №-li qərarı ilə işləyən qadınlar üçün bir sıra güzəştlər edilmişdi [20].

1956-57-ci illərdə respublikada olan 562 daimi uşaq bağçası 27.408 uşaq, 383 yay uşaq meydançası isə 24.072 uşaq əhatə edirdi. Mövcud uşaq bağçalarından 270-i (onlar 13.089 uşağı əhatə edirdi) maarif şöbələrinin, 14.319 uşağın cəlb edildiyi 292 uşaq bağçası isə başqa müəssisə və təşkilatların tabeliyində idi [5, s. 200]. Araşdırılan dövrdə məktəbəqədər uşaq müəssisələrinin inkişafının əsas səciyyəvi xüsusiyyətlərindən biri onların respublikanın bütün rayonlarını əhatə etməsi idi. Ən geridə qalmış rayonlarda belə uşaq bağçalarının tikilməsi ilə bağlı tapşırıqlar verilmişdi.

Azərbaycan SSR-də 1950-ci ildə 539, 1958-ci ildə 609, 1960-cı ildə isə 668 uşaq bağçası və yasli fəaliyyət göstərirdi. Yasli və uşaq bağçalarından başqa Azərbaycanda

məktəbəqədər uşaq müəssisələrinin digər formaları (əsasən mövsümi xarakter daşıyan) da mövcud idi. 1967-ci ildə nəşr edilmiş "SSRİ-də xalq təhsili" adlı kitabda Azərbaycanda 1959-cu ildə 1024 məktəbəqədər müəssisənin olduğu, 1965-ci ildə isə onların sayının 1260-a çatdırıldığı, tərbiyəçilərin sayının isə 2115-dən 4373-ə qədər artdığı qeyd olunur. Onilliyin sonunda – 1960-cı ildə Sovet hökumətinin 21 may 1959-cu il tarixli "Uşaq məktəbəqədər müəssisələrinin daha da inkişaf etdirilməsinə, məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin və onlara tibbi xidmətin yaxşılaşdırılmasına dair tədbirlər haqqında" qərarına uyğun olaraq ilk kompleks müəssisələr uşaq bağçası-yaslilər yaradıldı. 1966-cı ildə onların sayı 342-yə çatdırılmışdı, onlarda 33 min uşaq tərbiyə alırdı [3, s. 417].

1960-cı ildə daimi uşaq müəssisələrinin sayı 38, oradakı uşaqların sayı 1.3 təşkil edirdi [16, s. 281]. 1950-ci ildə daimi uşaq yaslilərindəki uşaqların sayı 9.0 min (onlardan 7.7 mini şəhərlərdə, 1.3 mini kənd yerlərində), 1960-cı ildə isə 12.8 minə (onlardan 11.1 şəhərlərdə, 1.7 mini kəndlərdə) təşkil edirdi. Daimi uşaq yaslilərində 1950-ci ildə 9.0. min, 1958-ci ildə 12.0, 1960-cı ildə isə12.8 min uşaq var idi [2, s. 39-40].

1950-ci ildə daimi uşaq bağçalarında və yasli-bağçalarda 22.0 min (onlardan 19.9 mini şəhərlərdə, 2.1 mini kənd yerlərində) uşaq tərbiyə alırdı. 1960-cı ildə bu rəqəmlər müvafiq olaraq 40.1 minə (37.0 minə və 3.1 minə) çatmışdı [17, s. 249].

Azərbaycanda məktəbəqədər tərbiyənin sonrakı inkişafında Sov. İKP və SSRİ Nazirlər Sovetinin "Uşaq məktəbəqədər müəssisələrinin daha da inkişaf etdirilməsinə, məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin və onlara tibbi xidmətin yaxşılaşdırılmasına dair tədbirlər haqqında" 21 may 1959-cu il tarixli qərarı da öz təsirini göstərdi [21]. Qərarda ölkədə məktəbəqədər uşaq müəssisələrinin hələ də çatışmadığı bildirilmiş, uşaq bağçaları və yaslilərin işinin təşkili və məzmunu ilə bağlı məsələlər qoyulmuşdu. Qərarda uşaq müəssisələrinin fəaliyyətində əsas nöqsan olaraq uşaq bağçaları və yaslilərdə uşaqların vahid, ardıcıl tərbiyə sisteminin olmaması göstərilirdi. Həmin qərarla uşaq məktəbəqədər müəssisələrinin 1959-1965-ci illəri əhatə edən inkişaf planı təsdiq edilmişdi. Bu qərar əsasında bütün ölkədə olduğu kimi respublikada da məktəbəqədər uşaq müəssisələri sistemi yenidən quruldu. Yasli-bağçalar haqqında müvəqqəti Əsasnamədə qeyd olunurdu ki, yasli-bağçalar "məktəb yaşına çatmamış uşaqların vahid kommunist tərbiyəsi sisteminin həyata keçirilməsi"məqsədilə yaradılır. Məktəbəqədər yaşındakı uşaqların vahid tərbiyə sisteminin həyata keçirilməsi üçün yerli şəraiti və imkanları nəzərə almaqla yaslilər və uşaq bağçaları vahid məktəbəqədər uşaq müəssisində yasli-bağçada birləşdirildilər. Bu müəssisələrdə valideynlərin arzusu nəzərə alınmaqla iki aylığından yeddi yaşadək uşaqların tərbiyə almaları nəzərdə tutulurdu. Lakin yasli-bağçaların sonrakı fəaliyyəti bu addımın düzgün olmadığını göstərdi.

Sovet hakimiyyətinin qadın məşğulluğu və təhsillə bağlı bütün digər qərarlarında da uşaq bağçalarının şəbəkəsinin genişləndirilməsi, onlarda təlim-tərbiyə işinin yaxşılaşdırılması tələb olunurdu. Sov İKP-nin XX qurultayının qətməməsinin uşaqların ictimai tərbiyəsi ilə bağlı hissəsində valideynlərin istəyi olarsa bütün uşaqların dövlət bağçaları və yaslilərlə əhatə olunması haqqında xüsusi müddəa var idi.

Müharibədən sonra uşaq sahibsizliyi (nəzarətsizliyi) ilə mübarizə istiqamətində təsirli addımlar atılırdı. Və bu da özünü uşaq evlərinin sayının hər il azalmasında göstərirdi. 1957-ci ildə respublikada yetim uşaqlar üçün 46 uşaq evi yaradılmışdı. Bu evlərdə 3.800-dən artıq uşaq tərbiyə alır və dövlət hesabına təmin olunurdular [4, s. 13]. 1964-cü ildə respublikada 17 uşaq evi mövcud idi ki, onlarda da 1695 uşaq tərbiyə olunurdu. Uşaq evlərinin azalması, qalanlarını iriləşdirməyə, onların maddi bazasını möhkəmləndirməyə və təchizatını yaxşılaşdırmağa imkan verdi [23, s. 56].

Bütün ölkədə olduğu kimi Azərbaycanda da daimi fəaliyyət göstərən uşaq bağçaları ilə yanaşı mövsümi bağçalar da mövcud idi. Kənd rayonlarında kolxoz və sovxozlarda çalışan

qadınların uşaqlarına xidmət etmək üçün hər il müvəqqəti uşaq bağçası və meydançaları təşkil olunurdu. Hələ 1950-ci ildə tarlada çalışan qadınların 12.870 uşağını əhatə edən 481 kolxoz uşaq bağçası təşkil edilmişdi. 1955-ci ildə 277 mövsümü uşaq bağçasına 9.790 uşaq cəlb edilmişdi [5, s.199-200]. Növbəti, 1956-cı ildə 300-ə qədər belə bağça və meydança 10 mindən artıq uşağı əhatə edirdi [4, s.11-12].

10 illiyin son üç ilində uşaq bağçalarının sayında nəzərəçarpacaq artım baş verirdi. 1958-ci ildə bütün idarələrə məxsus uşaq bağçalarının sayı 609 (onlardan 114 kənd yerlərində) idi. Bu bağçalarda tərbiyə alan uşaqların sayı isə 32909 min nəfər ( onlardan kənd yerlərində 2949), müdir və tərbiyəçilərin sayı isə 2572 nəfər (onlardan 270 kənd yerlərində idi). İki ildən sonra 1960-cı ildə bütün uşaq bağçalarının sayı 668-ə (kənd yerlərində 124-ə), onlardakı uşaqların sayı 49149-a (kənd yerlərində 3090-a), müdir və tərbiyəçilərin sayı isə 2993-ə (kənd yerlərində 295) çatmışdı [5, s. 224]. Respublikanın uşaq bağçalarında çalışanların 2.185 nəfəri ali və orta təhsilli idi [6, s. 23].

Araşdırılan dövrdə məktəbəqədər müəssisələrin fəaliyyəti ilə bağlı əsas məsələlərdən biri də onların yüksəkixtisaslı müəllim və tərbiyəçi kadrlarla təmin edilməsi idi. Məktəbəqədər müəssisələr sisteminin işinin təkmilləşdirilməsində, uşaqların tərbiyəsi ilə bağlı vəzifələrin həyata keçirilməsində yasli və bağçıların tərbiyəçilərinin və rəhbər heyətinin hazırlığı mühüm əhəmiyyət kəsb edirdi. 50-ci illərdə məktəbəqədər müəssisələr üçün kadr hazırlayan əsas təhsil müəssisəsi Bakı Məktəbəqədər Pedaqoji Texnikumu (hazırda Bakı Sosial Pedaqoji Kolleci) idi. Respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən pedaqoji məktəblərin məktəbəqədər şöbələrində də bu tip müəssisələr üçün kadr hazırlığı aparılırdı. O vaxta qədər müəllim hazırlığının əsas bazaları hesab edilən, respublikanın müxtəlif şəhərlərində (Ağdam, Quba, Qazax, Naxçıvan, Şəki) fəaliyyət göstərən müəllimlər institutları tələblərə cavab vermədiklərinə görə bağlanmışdılar. V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun və H.b. Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun müvafiq fakültələrində uşaq müəssisələri rəhbərləri, xalq təhsili metodistləri, pedaqoji məktəblər üçün ali ixtisaslı müəllim kadrlar hazırlanırdı.

Bu istiqamətdə atılan addımlar sayəsində bağçaların ixtisaslı kadrlarla təmin edilməsi kimi mühüm vəzifəyə artıq 1950-ci illərin ortalarında nail olmaq mümkün olmuşdu. Orta təhsili olmayan bağça işçilərinin sayı getdikcə azalır, pedaqoji təhsilli müdir və tərbiyəçilərin sayı artırdı. 1957-ci ilin əvvəllərində Maarif Nazirliyi sistemində 993 tərbiyəçi və uşaq bağçası müdirindən 113 nəfərin ali pedaqoji təhsili, 593 nəfərin orta pedaqoji təhsili, 194 nəfərin ümumi orta təhsili və cəmi 93 nəfərin tam olmayan orta təhsili var idi [7, s. 201].

1950-ci illərdə uşaq müəssisələrində çalışan tərbiyəçilərə metodik kömək göstərilməsi işi də tədricən sistemli hala düşürdü. Məktəbəqədər müəssisələrin işinə metodiki rəhbərliyi məktəbəqədər tərbiyə üzrə respublika metodiki kabinəsi, yerlərdə isə rayon xalq təhsili şöbələrinin metodistləri həyata keçirirdilər. Azərbaycan Müəllimlərin Təkmilləşdirmə İnstitutu nəzdində də müvafiq kabinə fəaliyyət göstərirdi. Bağça tərbiyəçilərinə metodiki yardım məktəbəqədər uşaq müəssisələrinin işinin yaxşılaşdırılmasının əsas şərtlərindən biri idi. Azərbaycan SSR Maarif nazirliyi tabeliyində olan məktəbəqədər elmi-metodiki kabinələr uşaq müəssisələrində ictimai tərbiyə sisteminin düzgün qurulmasında bağça müdirlərinə və tərbiyəçilərinə metodik yardım göstərirdilər. Bu kabinələr tərbiyəçilər və metodistlər üçün metodik vəsaitlər, əyani materiallar (məktəbəqədər uşaqlar üçün diafilmlər, kinofilmlər. şəkillər və s.) hazırlanmasında yaxından iştirak edirdilər. Maarif nazirliyinin nəzdindəki metodik kabinə Müəllimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları ilə birgə məktəbəqədər tərbiyə müəssisələrinin rəhbərlərinin və tərbiyəçilərinin metodik səviyyəsini artırmaq, onlara uşaq bağçaları proqramının öyrədilməsi məqsədilə müntəzəm olaraq rayonlarda məktəbəqədər müəssisələrin müdirləri və tərbiyəçiləri üçün ixtisasartırma kursları təşkil edir, məktəbəqədər tərbiyənin aktual problemlərinə dair müntəzəm seminarlar keçirirdilər. Rayonlarda

məktəbəqədər tərbiyə müəssisələri işçilərinin seminarları və metodbirləşmələri təşkil olunurdu.

Uşaqlarla işləmək metodikasına yiyələnməkdə tərbiyəçilərə yardım göstərmək məqsədilə Azərbaycan dilində metodik vəsaitlər ("Uşaq bağçasında bədən tərbiyəsi", "Uşaq bağçasında mütəhərrik oyunlar məcmuəsi", "Didaktik oyunlar məcmuəsi", "Uşaq bağçası üçün mahnılar məcmuəsi" və s.) nəşr edilmişdi. Kolxoz uşaq bağçaları və meydançalarının işçiləri üçün də xüsusi metodik ədəbiyyat nəşr edilmişdi. Respublikanın uşaq bağçalarında bütün tərbiyə işləri Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən təsdiq olunmuş "Uşaq bağçasının nizamnaməsi" və "Uşaq bağçaları tərbiyəçiləri üçün rəhbərlik" və digər dövlət proqramları əsasında aparılırdı [5, s. 203-204]. Ən yaxşı uşaq bağçalarının və tərbiyəçilərin iş təcrübəsi rayonlararası metodbirləşmələrdə və dövrü mətbuatda ("Azərbaycan müəllimi" qəzetində və "Azərbaycan məktəbi" jurnalında) işıqlandırılırdı.

Respublikanın uşaq bağçalarında tətbiq olunan rejim gündə üç-dörd dəfə yemək, açıq havada gəzinti, gündüz yuxusu, uşaqları məktəbə hazırlamaq üçün mütəhərrik və didaktik xarakterli oyun və məşğələlərin keçirilməsindən ibarət idi. Uşaqların sağlamlığının möhkəmləndirilməsi məqsədilə həkim və tibb işçilərinin müşayiəti altında profilaktiki tədbirlər həyata keçirilirdi. Bağçalarda uşaqlar ilkin gigiyenik və mədəni, nəzakətli davranış vərdişləri aşılanırdı. Uşaqların estetik və əmək tərbiyəsinə də xüsusi diqqət yetirilirdi. Uşaqlar bağçalarda rəsm çəkmək, rəqs etmək, mahnı oxumaq, özünə xidmət etmək və s. vərdişlərə yiyələnirdilər [1, s. 54].

Respublikada uşaq bağçalarında uşaqların tərbiyəsi və təlimi dörd dildə - Azərbaycan, rus, erməni və gürcü dillərində aparılırdı.

1950-ci illərin sonlarında uşaq bağçalarında təlim-tərbiyə işinin keyfiyyətinin yaxşılaşdırılmasına diqqət artırıldı. Uşaqların fiziki, estetik, mənəvi tərbiyəsinə daha çox diqqət yetirilir, onlara tibbi xidmətin keyfiyyəti yaxşılaşırdı [5, s. 204-211]. Təbii ki, bu zaman bağçalarda uşaqların ictimai tərbiyəsi sovet dövlətinin ideoloji ehkamları çərçivəsində aparılırdı.

Bütövlükdə, 1945-1960-cı illərdə Azərbaycan SSR-də məktəbəqədər uşaq müəssisələrinin inkişafı sahəsində müəyyən uğurların əldə edildiyini vurğulamaq lazımdır. Azərbaycan qadınlarının ictimai istehsala geniş cəlb edilməsi bu tip müəssisələrin sayının artırılmasını zəruri edirdi. Ümumittifaq və respublika büdcəsindən mədəni-maarif və təhsil sahələrinə ayrılan vəsaitlərin ilbəil artırılması məktəbəqədər müəssisələrin şəbəkəsinin genişlənməsinə və onların maddi-texniki bazasının yaxşılaşdırılmasına şərait yaradırdı. Nəticədə uşaq bağçaları və yaslilərin sayı 1945-ci illə müqayisədə 1960-ci ildə dəfələrlə artmış, onların coğrafiyası bütün inzibati-ərazi vahidlərin əhatə etmişdi. Azərbaycanın kənd yaşayış yerlərində dövlət vəsaiti və kolxozların hesabına uşaq müəssisələrinin tikilməsi də dövrün səciyyəvi xüsusiyyətlərindən biri sayıla bilər. Məktəbəqədər müəssisələrin inkişafına ümumittifaq və respublika səviyyəsində bu sahənin inkişafı ilə bağlı qəbul edilmiş qərar və planlar da öz müsbət təsirini göstərirdi.

Məktəbəqədər uşaq müəssisələrini uşaqların ictimai tərbiyəsinin və kommunist ideologiyasını prinsipləri əsasında böyüməsinin əsas formalarından biri hesab edən sovet hakimiyyəti uşaq bağçalarında uşaqların sovet ruhunda tərbiyələndirilməsinin bütöv bir sistemini və nəzəriyyəsini yaratmışdı. Araşdırılan dövrdə bu istiqamətdə də Azərbaycanda müvafiq ideoloji və metodoloji işlər aparılırdı.

1950-ci illərdə məktəbəqədər müəssisələr sisteminin inkişafında nəzərəçarpacaq nailiyyətlərin əldə olunmasına baxmayaraq bu sahədə ciddi problemlər hələ də özünü göstərirdi. Məktəblərdə təlimin 7 yaşından başlanılması haqqında qərar qəbul edildikdən sonra məktəbəqədər müəssisələrdə yerlərin boşalması daha çox uşağı bağçalara cəlb etməyə

imkan verdi. Buna baxmayaraq əhalinin təbii artımı, qadınların istehsala geniş cəlb olunması uşaq bağçalarına tələbatı artırırdı.

Bu tip müəssisələrin şəbəkəsinin sürətlə genişlənməsinə, onlara cəlb olunan uşaqların sayının artmasına baxmayaraq onların inkişaf surəti əhalinin tələbatından, qadınların məşğulluq səviyyəsindən dəfələrlə geri qalırdı. İşləyən qadınlar öz uşaqlarını bağçalara yerləşdirmək üçün uzun müddət gözləməli olurdular. Respublikada uşaq müəssisələrinin tikintisi yeni sənaye müəssisələrinin yaradılması, məhsuldar qüvvələrin yerləşdirilməsi vəzifələri ilə uzlaşmırdı. Uşaq müəssislərinin maddi təchizatı, uşaqların hərtərəfli tərbiyəsi, uşaq bağçalarına metodik rəhbərlik, onların ixtisaslı kadrlarla təmin edilməsi məsələləri dövrün tələblərinə cavab vermirdi. Nəticədə partiya və dövlət sənədlərində bütün məktəb yaşına çatmamış uşaqların uşaq müəssisələrinə cəlb edilməsi və orada ictimai tərbiyələndirilməsi ilə bağlı qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək mümkün olmamışdı.

## ƏDƏBİYYAT

1. Azərbaycanda xalq maarifinin inkişafı. Qurultaydan-qurultaya. Bakı, 1987, 111 s.
2. Azərbaycanda qadınlar və kişilər - 2020. Statistik məcmuə. Bakı, AR DSK, 2021.
3. Azərbaycanın statistik göstəriciləri 2007. Statistik məcmuə, Bakı, Səda, 2007.
4. Bayramov A. Sovet Azərbaycanında mədəniyyətin çiçəklənməsi // Azərbaycan SSR-də xalq maarifinin nailiyyətləri. Böyük Oktyabr Sosialist İnqilabının 40 illiyi münasibətilə. Bakı, “Azərbaycan məktəbi” jurnalının nəşriyyatı, 1957, s. 3-19.
5. Hacıyeva S. Azərbaycan SSR-də məktəbəqədər tərbiyə // Azərbaycan SSR-də xalq maarifinin nailiyyətləri. Böyük Oktyabr Sosialist İnqilabının 40 illiyi münasibətilə. Bakı, “Azərbaycan məktəbi” jurnalının nəşriyyatı, 1957, s. 195-212.
6. İbrahimov M. Respublikamızın məktəblərində təlim və tərbiyənin keyfiyyətinin yaxşılaşdırmaq haqqında Azərbaycan SSR maarif nazirinin məruzəsi // “Azərbaycan məktəbi” jurnalı, 1946, № 6, s. 9-19.
7. Məktəblərin və xalq maarifi orqanlarının rəhbər işçiləri üçün məlumat kitabı. Bakı, Maarif, 1984, 196 s.
8. Muradov Ş. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər. 1897-2007-ci illər. Bakı, Elm, 2008, 240 s.
9. Muradov Ş. Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri. Bakı, Elm, 1974,189 s.
10. Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişafı. Statistik məcmuə, Naxçıvan, 1964.
11. Достижения Советского Азербайджана за 40 лет в цифрах. Статистический сборник. Баку, 1960.
12. Народное хозяйство Азербайджанской ССР. Статистический сборник, Баку, 1957.
13. Народное хозяйство Азербайджанской ССР в 1980 году. Статистический ежегодник. Баку, АзГосИздат, 1981, 291 с.
14. Народное хозяйство Азербайджанской ССР в 1962 г. Статистический ежегодник. Баку, 1963, 255 с.
15. Народное хозяйство Азербайджанской ССР в 1963 году. Статистический ежегодник. Баку, АзГосИздат. 1965.
16. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Баку, Азернешр, 1987.
17. Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, 1972, 282 с.
18. Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Юбилейный статистический ежегодник. Баку, 1982, 352 с.

19. Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, 1972, 282 с.
20. О дальнейших мерах помощи женщинам - матерям, работающим на предприятиях и в учреждениях // Постановление Совета Министров СССР от 13 октября 1956 г. N 1414. http://www.libussr.ru/doc_ussr/ussr_5139.htm
21. О мерах по дальнейшему развитию детских дошкольных учреждений, улучшению воспитания и медицинского обслуживания детей дошкольного возраста // Постановление Центрального Комитета КПСС и Совета Министров СССР от 21 мая 1959 г. N 558 http://www.libussr.ru/doc_ussr/usr_5407.htm
22. О мероприятиях по расширению сети детских учреждений и родильных домов и улучшению их работы. Постановление Совета Министров СССР от 18 мая 1949 г. N 2004 http://www.libussr.ru/doc_ussr/ussr_4747.htm
23. Пашаев Н.А. Победа культурной революции в Советском Азербайджане. Москва, Наука, 1976, 263 с.
24. Развитие народного хозяйства Азербайджанской ССР и рост материального и культурного уровня жизни народа. Баку, 1961, 238 с.
25. Численность и состав населения СССР. Москва, Финансы и статистика, 1984, 366 с.

УДК 94

*Ш.С.Бабаева*
*Институт Этнологии и Истории им. А.А.Бакиханова НАНА*

# РАЗВИТИЕ СИСТЕМЫ ДЕТСКИХ ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1945-1960 ГОДАХ

*РЕЗЮМЕ*

*Ключевые слова:* дошкольные учреждения, культурно-просветительская сфера, женщины, дети

В 40-60-е годы XX века представляют собой важный этап в развитии дошкольных образовательных учреждений в Азербайджане. Следует подчеркнуть, что в 1945-1960 годах в Азербайджанской ССР были достигнуты определенные успехи в развитии детских дошкольных учреждений. Широкое вовлечение азербайджанских женщин в общественное производство потребовало увеличения числа предприятий этого типа. Ежегодное увеличение средств, выделяемых из общесоюзного и республиканского бюджетов на культурно-просветительскую и образовательную сферы, способствовало расширению сети дошкольных учреждений и совершенствованию их материально-технической базы. В результате количество детских садов и яслей в 1960 году по сравнению с 1945 годом увеличилось в несколько раз, их география охватывала все административно-территориальные единицы. Одной из характерных особенностей периода можно считать строительство детских учреждений в сельских населенных пунктах Азербайджана на государственные средства и за счет колхозов. Положительное влияние на развитие дошкольных учреждений оказали также принятые на Всесоюзном и республиканском уровнях решения и планы по развитию этой сферы.

UDC 94

*Sh.S.Babayeva*
*Institute of Ethnology and History named after A.A.Bakikhanov ANAS*

DEVELOPMENT OF THE SYSTEM OF PRESCHOOL INSTITUTIONS IN THE AZERBAIJAN SSR IN 1945-1960

*SUMMARY*

*Key words:* preschool institutions, cultural and educational sphere, women, children

The 40s and 60s of the 20th century represent an important stage in the development of pre-school educational institutions in Azerbaijan. It should be emphasized that in 1945-1960, certain successes were achieved in the development of preschool institutions in the Azerbaijan SSR. The widespread involvement of Azerbaijani women in public production required an increase in the number of enterprises of this type. The annual increase in funds allocated from the all-Union and republican budgets for cultural, educational and educational spheres contributed to the expansion of the network of preschool institutions and the improvement of their material and technical base. As a result, the number of kindergartens and nurseries increased several times in 1960 compared to 1945, and their geography covered all administrative-territorial units. One of the characteristic features of the period can be considered the construction of children's institutions in rural settlements of Azerbaijan with state funds and at the expense of collective farms. Decisions and plans for the development of this sphere adopted at the All-Union and republican levels also had a positive impact on the development of preschool institutions.

***Daxil oldu: 24.02.2024-cü il***